# Regionun ən böyük siyasi qüvvəsi

**Azərbaycanın ən ağır günlərində, müstəqilliyimizin itirilməsi təhlükəsi ilə üz-üzə qaldığımız bir vaxtda xalqımızın ziyalıları siyasi partiya yaratmaq təşəbbüsü ilə çıxış etdilər və bu məqsədlə görkəmli dövlət xadimi Heydər Əliyevin ətrafında birləşdilər. 91 nəfər ziyalının Heydər Əliyevə müraciətində ondan yeni yaradılacaq partiyaya sədrlik etmək xahiş olunurdu. Bu müraciət həm də xalqın istək və arzusunu ifadə edirdi.**

1992-ci il noyabrın 21-də Azərbaycanın bütün regionlarından seçilmiş 550 nəfərdən ibarət təşəbbüs qrupu Naxçıvana gedərək partiyanın təsis konfransını keçirməyə nail oldu. Təsis konfransında Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərar qəbul edildi və Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçildi. Konfransda həmçinin partiyanın Proqram və Nizamnaməsi də qəbul edildi. Beləliklə, bu gün də regionda ən böyük və güclü siyasi partiya olan YAP-ın təməli qoyuldu.

Ulu Öndər Heydər Əliyev tərəfindən yaradılmış YAP-ın əsas prinsipi və vəzifəsi dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsi, demokratik, hüquqi dövlət qurulması, eləcə də vətəndaşların dinc və firavan həyat sürməsini təmin etməkdir. Partiya məfkurəsinin əsasını təşkil edən müstəqil dövlətçilik, qanunçuluq, azərbaycançılıq, yaradıcı təkamül, vətəndaş həmrəyliyi və sosial ədalət prinsipləri YAP-ın qarşısında duran vəzifələrin həyata keçirilməsinin ideya təminatı olaraq mahiyyətcə Azərbaycanın siyasi gələcəyinin də ideya bazasını şərtləndirir.

Ümummilli Lider Heydər Əliyev xalqını sevən, müstəqil Azərbaycanın yaşaması və güclü dövlət olması üçün canını belə əsirgəməyən dahi şəxsiyyət idi. 1993-cü ildə Azərbaycan vətəndaş müharibəsi astanasında olanda və ölkəmiz parçalanma təhlükəsi ilə üz-üzə qalanda bütün xalq Heydər Əliyev müdrikliyinə sığındı və bu ağır vəziyyətdən qurtuluşun yeganə yolunu Heydər Əliyev dühasında gördü. Heydər Əliyev müdrik və qətiyyətli siyasəti ilə xalqı ağır vəziyyətdən ən qısa vaxtda çıxarmağı bacardı.

1993-cü ildə YAP-ın Sədri Heydər Əliyev xalqın böyük əksəriyyətinin səs çoxluğu ilə Prezident seçildi və YAP iqtidar partiyası oldu. Həmin tarixdən bugünkü güclü, qüdrətli Azərbaycan dövlətinin təməli qoyuldu.

YAP-ın 2005-ci il martın 26-da keçirilən III Qurultayında İlham Əliyev partiyanın yeni Sədri seçildi. Bu, dövlətimizin başçısına olan etimadın göstəricisi idi.



Bu gün dövrün tələblərinə uyğun olaraq Yeni Azərbaycan Partiyasında da islahatlar aparılır. YAP-ın VII Qurultayında qəbul edilmiş qərarlar əsasında partiyanın yeni Nizamnaməsi, 40 nəfərdən ibarət İdarə Heyəti, 13 nəfərdən ibarət Təftiş Komissiyası, 35 nəfərdən ibarət Veteranlar Şurası təsdiq edilmişdir.

YAP-ın yeni Nizamnaməsinə uyğun olaraq partiyanın Sədri İlham Əliyevin sərəncamı ilə 2021-ci il martın 5-də Mehriban Əliyeva partiya Sədrinin birinci müavini təyin edildi. Bu təyinat Mehriban Əliyevaya olan yüksək etimadın və Azərbaycanın dövlət siyasətində qadına ayrılan xüsusi diqqətin nəticəsidir. Mehriban Əliyevanın timsalında Azərbaycan qadınının fəal, ictimai-siyasi, vətəndaş və peşəkar dövlət xadimi obrazı formalaşmışdır.

YAP həmçinin təşəbbüskar bir partiya kimi hər zaman digər siyasi partiyalarla dialoqa hazır olduğunu bəyan etmişdir. YAP həm də Avropa və Asiyada iqtidarda olan bir çox siyasi partiyalarla sıx əməkdaşlıq edir.

YAP-ın hakim partiya olduğu dövrdə Azərbaycan həm siyasi, həm də iqtisadi cəhətdən inkişaf edərək qüdrətli dövlətə çevrilmişdir. Dünya Bankının qiymətləndirməsinə görə, ölkəmiz 2002-2022-ci illərdə yuxarı orta gəlirli ölkələr qrupuna daxil edilmişdir. Həmçinin son 20 ildə iqtisadiyyatımız 4 dəfədən çox artmışdır. İxracın həcmi artaraq 2,2 milyard ABŞ dollarından 38,1 milyard ABŞ dollarına çatmışdır. Dövlət büdcəsində qeyri-neft sektorundan gələn gəlirlər neft-qaz sektorunun gəlirlərini üstələyir. Bu gün Azərbaycanın strateji valyuta ehtiyatları 66 milyard ABŞ dollarından çoxdur.

Azərbaycan Prezident, YAP-ın Sədri İlham Əliyevin rəhbərliyi ilə bu gün dünyada söz sahibinə çevrilmişdir. Dünya liderləri də ölkə başçımızın güclü, qətiyyətli, müdrik siyasətçi və mahir diplomat olduğunu vurğulayırlar.

**Kamilə ƏLİYEVA,**
***Milli Məclisin deputatı***

Azərbaycan.- 2023.-21 noyabr, № 253.- S.10.